# Əlifba bayramı

2 iyun günü insanlara xoş ovqat bəxş edən baharın sevinci şəhər 1 saylı tam orta



məktəbdə oxuyan birincilərin sevincinə qarışmışdı. Artıq onlar bilik mənbəyi olan «Əlifba»nı öyrənib başa çatdırmış, sərbəst oxuya və yaza bilirlər. Valideynlər üçün bu gün çox əlamətdar və unudulmazdır. Axı onlar üçün bundan qiymətli nə ola bilər?

Məktəbdə bu münasibətlə keçirilən bayram tədbirində müəllimlər, valideynlər, təhsil şöbəsinin işçiləri, iştirak edirdilər.

Şəhər 1 saylı tam orta məktəbdə 3 birinci sinif var. Bu günkü tədbir 1 «a» sinfinin şagirdləri üçün təşkil olunmuşdur.

Onların sinif rəhbəri Şəhla Cəfərovadır. Şəhla, müəllimə öz şagirdlərinə ana qayğısı ilə yanaşır, onları çox sevir, səliqələrinə, etikalarına, aktiv olmalarına, dərslərini yaxşı oxumalarına xüsusi diqqət yetirir.

Şəhla müəllimənin təşkilatçılığı ilə keçirilən Əlifba bayramı çox gözəl, yüksək səviyyədə hazırlanmışdır.

Tədbir Dövlət Himnimizin səslənməsi ilə başlandı.

Birincilər tərəfindən vətənə aid şerlər, mahnılar ifa olundu. Bu kiçik yaşlı fidanlarımızın vətənə olan məhəbbətlərinin, sevgilərinin təzahürü idi. Səhnəciklər, rəqslər, şənliyə xüsusi ovqat gətirdi.

Şagirdlərin belə yüksək çıxışları Şəhla müəllimənin bir illik zəhmətinin bəhrəsi idi.

Tədbirdə iştirak edən valideynlər adından Əli İsmayılov (baba), Aygün Qarayeva, Ruhiyyə Mahmudlu, İsgəndər İsmayılov, Sadiq Həmidov, İldırım Mahmudov və başqaları çıxış edərək məktəb rəhbərliyinə, o cümlədən birincilərin daim qayğılarını çəkən Şəhla müəlliməyə öz təşəkkürlərini bildirdilər.

Məktəbin direktoru Məhəbbət Rüstəmova, təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova və başqaları çıxış edərək birinciləri və onların müəllimləri Şəhla Cəfərovanı, valideynləri təbrik etdilər, xoş arzularını bildirdilər.

**Dünya İSGƏNDƏRLİ,**
**şəhər 2 saylı tam orta məktəbin müəllimi, valideyn.**

# Kompyuter oyunları üzrə Qəbələ rayon çempionatı

Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə iyun ayının 7-də gənclər arasında "Kompyuter Oyunları" üzrə rayon çempionatı keçirilmişdir. Çempionatda yarışlar "Fifa" və "Point" oyunları üzrə təşkil edilmişdir. Yarışda müxtəlif istiqamətlərdə çalışan və təhsil alan 30 nəfər gənc iştirak edib.

Belə bir tədbirin təşkilində əsas məqsəd kiber idmanı rayonda populyarlaşdırmaq, həmçinin gənclərin müasir informasiya-kommunikasiya texnologiyalarına və kompyuter texnikasına marağını artırmaqdan ibarətdir.

Kompyuter oyunlarının tərkibində zehni inkişaf etirmək, alternativ vəziyyətlərdə nə edə bilmək imkanları vardır ki, bu da gənclərdə qərar vermək mədəniyyətini formalaşdırır.



Rayon çempionatda "Fifa" oyunu üzrə Pərvin Cəbrayıllı I yerə, Bəxtiyar Osmanlı II yerə və Rasim Abdullayev III yerə layiq görülmüşlər. "Point" oyunu üzrə isə Toğrul Rəcəbov I yeri, Elvin İsayev II yeri və Turqay İmanov III yeri tutmuşlar.

Qaliblərə Gənclər və İdman idarəsinin diplomları təqdim edilmiş və onlar Kompyuter oyunları üzrə Azərbaycan çempionatının zona yarışında iştirak etmək hüququ əldə etmişlər.

**M. SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**
**Foto S. Umuyevindir.**

# Müdrük sözlər toplusu xəzinəsindən

**Teymur Rəhmanov əvvəllər mədəniyyət işçisi olub. Hazırda Tüntül kəndində yaşayır, pensiyaçıdır. Gördüklərinin, dərk etdiklərinin, düşüncələrinin nəticələrini ağ kağıza köçürüb redaksiyamıza göndərib. Atalar sözlərinə, zərb məsələlərə yaxın olan bu deyimləri dərc edirik. Yəqin ki, bu deyimlər oxucular tərəfindən də qəbul ediləcəkdir. Oxucularımız bu deyimlərə görə redaksiyamıza və ya müəllifə rəy də göndərə bilərlər.**

✦ Bir insana ömrümü girov qoydum, həyatda, bir adam kimi yaşamaq üçün.

✦Dərk və idrak sağlam şüurdan bəhrələnərsə, sonluğu kamilikdir.

✦Söyüddən bar olmaz, nadandan adam, gədadan kişi.

✦Fikir altında yaşama, sağlam şüur altında yaşa. Çünki, fikir hərdənxəyallıqdır.

✦Deyiləsi söz də becərilməlidir.

✦Südə vursan ki, maya qatıq eyləsin,
Süddə südlük yoxdursa, maya neyləsin.

✦Kökə vurasan ki, çalaq, peyvənd eyləsin.
Kökdə köklük yoxdursa çalaq neyləsin.

✦Məhəbbətsiz ürək, sahibini sevdirə bilməz.

✦Üz qoymusansa, aç qapını.

✦Mərifəti axtarma sən hec yerdən,
✦Özün düşün özündə mərifəti,
Özün çalış, özün qazan hörməti.

✦Neyləyirəm o, qonşunu ki, qonşuluğu bacarmır.

✦Səhvini qanmayanlar, cahildirlər.

✦İnsanlar, zəif hislərinin quludurlar.

✦Xofluluq və pis nəfs insanların düşmənidir.

✦Gen gəzərsən, tək qalarsan.

✦Nuşluq sağlamlığın sərhəd müdafiəcisidir.

✦Olmaq üçün olma, yaşamaq üçün ol.

✦Etibar və şərəf əsl məhəbbətin təməlidir.

✦Etibar kəndir deyil, qırılanda çalayasan.

**(Ardı var).**

# İdman sağlamlıqdır

Qəbələ rayon Uşaq Gənclər İdman Məktəbi (UGİM) Olimpiya İdman Kompleksi ilə birlikdə «İdman Sağlamlıqdır» devizi altında müxtəlif tədbirlər həyata keçirir. UGİM-in məşqçi müəllimlərinin təşkilatçılığı ilə Qəbələ şəhəri, Abrıx, Nohurqışlaq, Mirzəbəyl,Topbağ, Yenikənd, Zalam, Xırxatala və digər kəndlərdə yaşayan məktəbli idmansevərlərin Olimpiya İdman Kompleksinə ekskursiyaları təşkil olunmaqdadır. Burada məktəblilərin İdman Kompleksi ilə əhatəli tanışlığından sonra onlar yarışlara və müxtəlif məşqlərə tamaşa etməklə yanaşı, özləri də məşq və yarışlarda iştirak edirlər.

Tədbirlərin birində Azərbaycan Respublikası Təhsil Nazirliyinin Oğuz Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəhbər işçiləri, rayon təhsil şöbəsinin nümayəndələri də iştirak etmişlər. Onlar maraqlı tədbirlərin təşkilinə görə UGİM-in direktoru Ədalət Əliyevə və Qəbələ Olimpiya İdman Kompleksinin direktoru Valeh Əzimova mərkəz rəhbərliyinin adından razılıq bildirmişlər.

Uşaq-Gənclər İdman Məktəbinin kollektivi çalışacaqdır ki, bundan sonra da etimadı doğrultsun.

**Xəyal HÜSEYNLİ,**
**UGİM-nin direktor müavini.**


# «Qəbələ» qəzetinə

**2016-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


# ELANLAR

Qəbələ şəhəri İ. Qutqaşenli küçəsi bina 39 ev 23-də yaşayan **Səmədov Arzu Aydın oğluna** məxsus BC kateqoriyalı 05.12. 2007-ci il tarixdə verilmiş AA 989334 №-li **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 09 saylı qərarla Həmzəli kənd sakini **Cabbarov Nəriman Fərhad oğlunun və ailə üzvlərinin** adına verilmiş JN:9015 nömrəli, kodu 40605018 olan **Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ rayonu Şamılı kənd sakini **Soltanov Sədri Abdulxalıq oğlunun** adına verilmiş reyestr nömrəsi: 406013059139-10301, inventar nömrəsi:406-4/67, tərtib edilmə tarixi: 08.08.2014 olan **Fərdi yaşayış evi üçün Texniki Pasport** və seriya RX № 0468291, İN-045 A olan **Çıxarış** itdiyi üçün etibarsız sayılır.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.

Oxucu məktubları geri qaytarılmır.